Səh. 2 Qısa məsafəyə uzun qaçış – Hacı Bəkiroğlu
Səh. 3 Əzizim əzizdir... – Esmira Ələkbərli
Səh. 5 Özümlə müsahibə – Abdulla Elşadlı
Səh. 6 Gözü açıq korlar – Lamiyə Hacıyeva
Səh. 2 Səhv yönləndirilmiş enerji – Həmid Sadıx
Səh. 4 ABİTURİYENTLƏRİN ÇOXU TARİX VƏ RİYAZİYYAT FƏNNİNİ SEÇİB
Səh. 7 Belə-belə işlər: Qalaktion Tabidze – Mirzə Məmmədoğlu

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 MAY
2026-CI İL
№ 10 (250)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTAN PREZİDENTİ VƏ BAŞ NAZİR ÖLKƏ MÜSƏLMANLARINI QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ TƏBEİK EDİB



Gürcüstan Prezidenti Mixeil Kavelaşvili Tbilisidə yerləşən Cümə məscidində Qurban bayramı münasibətilə ölkənin müsəlman icması ilə görüşüb və təbrik nitqi ilə çıxış edib.

Prezident çıxışında ölkədə dini tolerantlığın və müxtəlif icmalar arasında qarşılıqlı hörmətin ölkənin əsas dəyərlərindən biri olduğunu vurğulayıb.

O qeyd edib ki, müsəlman icması Gürcüstan cəmiyyətinin ayrılmaz hissəsidir və ölkənin sosial-mədəni həyatında mühüm rol oynayır.

Dövlət başçısı Qurban bayramının sülh, həmrəylik, mərhəmət və xeyirxahlıq kimi dəyərləri təcəssüm etdirdiyini bildirib və bütün müsəlman icmasını bayram münasibətilə təbrik edib.

Prezident, həmçinin Gürcüstanda dini azadlıqların qorunmasının və bütün vətəndaşların öz dini ayinlərini sərbəst şəkildə icra etməsi üçün lazımi şəraitin yaradılmasının dövlət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu qeyd edib.

M.Kavelaşvili Gürcüstan Patriarxı II İliyanın vəfatı zamanı Azərbaycan və Gürcüstan müsəlman icmasının öz milli və dini bayramlarını təxirə salaraq göstərdiyi həmrəyliyə görə minnətdarlığını bildirib.

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze isə ölkədə dini azadlıqların təmin olunmasından danışıb.

Tədbirdə, həmçinin Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, eləcə də müxtəlif ölkələrin diplomatik korpusunun nümayəndələri iştirak ediblər.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze də ölkənin müsəlman icmasını Qurban bayramı münasibətilə təbrik edib.



Hökumət administrasiyasının yaydığı məlumata əsasən, Baş nazir təbrikdə müsəlmanlarla əsrlər boyu davam edən birgəyaşayış, bir-birinin adət-ənənələrinə və mədəniyyətinə hörmətdən bəhs edib.

“Müsəlman həmvətənlərimizi xeyirxahlıq, qarşılıqlı yardım və ümid bayramı olan Qurban bayramı münasibətilə ürəkdən təbrik edirəm. Bu gün ailələrinizdə hökm sürən bayram əhval-ruhiyyəsinə qoşuluram və hər birinizə sülh, firavanlıq və xoşbəxtlik arzulayıram”, – deyə Kobaxidze bildirib.

## İRAKLİ KOBAXİDZE TÜRKİYƏNİN YENİ SƏFİRİ İLƏ GÖRÜŞÜB



Baş nazir İrakli Kobaxidze Türkiyə Cümhuriyyətinin Gürcüstana yeni təyin olunmuş səfiri Mustafa Türker ilə görüşüb. Bu barədə Gürcüstan hökumət administrasiyası məlumat yayıb.

Məlumatda bildirilir ki, görüşdə iki ölkə arasında ortaq regional maraqlara əsaslanan güclü strateji tərəfdaşlığın əhəmiyyəti qeyd olunub.

İqtisadi əlaqələrin gücləndirilməsinin vacibliyinə diqqət yetirilib və Türkiyənin Gürcüstanın aparıcı ticarət tərəfdaşı olduğu bildirilib.

Tərəflər Orta Dəhlizin inkişaf imkanlarını və birgə regional layihələri müzakirə ediblər.

Bu kontekstdə Cənubi Qafqaz regionunda sülhün və sabitliyin təmin edilməsinin vacibliyi xüsusi vurğulanıb.

## TƏHSİL NAZİRİ TÜRKİYƏNİN GÜRCÜSTANA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İLƏ TANIŞLIQ GÖRÜŞÜ KEÇİRİB



Gürcüstanın təhsil, elm və gənclər naziri Givi Mikanadze Türkiyə Cümhuriyyətinin Gürcüstana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mustafa Türker Arı ilə tanışlıq görüşü keçirib.

Nazir səfirə yeni vəzifəsində uğurlar arzulayıb və Gürcüstan ilə Türkiyə arasında çoxillik səmərəli əməkdaşlıq münasibətlərinin olduğunu qeyd edib.

Givi Mikanadzenin sözlərinə görə, iki ölkənin səyləri nəticəsində təhsil, elm və gənclər sahələrində bir sıra mühüm təşəbbüslər həyata keçirilir.

O, Mustafa Türker Arıya Gürcüstanın təhsil sistemində həyata keçirilən irimiqyaslı islahatların əsas istiqamətləri barədə məlumat verib və xüsusilə ali təhsil sisteminin islahatına diqqət çəkib.

Tanışlıq xarakterli görüşdə tərəflər iki ölkə arasında mövcud olan uğurlu əməkdaşlığı müzakirə edib və tərəfdaşlığın genişləndirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

Söhbət gənclər üçün birgə layihələrin icrası məsələsinə də toxunub. Qeyd olunub ki, Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyi ilə Türkiyə Cümhuriyyətinin Gənclər və İdman Nazirliyi arasında imzalanmış memorandum gənclər arasında əlaqələrin dərinləşməsinə mühüm töhfə verəcək.

Görüşün sonunda səfir qonaqpərvərliyə görə Givi Mikanadzeyə təşəkkürünü bildirib və iki ölkə arasında mövcud olan konstruktiv tərəfdaşlığın gücləndirilməsinə hazır olduğunu ifadə edib.



# QISA MƏSAFƏYƏ UZUN QAÇIŞ

Hacı Bəkiroğlu
haci-bekiroglu@hotmail.com

Hər səhər eyni həyəcanla, eyni təlaşla yuxudan oyanırıq. Bir yerlərə tələsir, harasa çatmalı olduğumuzu düşünür və zamanın necə əriyib getdiyini hər saata baxdığımızda gördüyümüz, ancaq ciddiyə almadığımız saniyə əqrəbində çarəsizcə izləyirik. Əslində hamımızın yaşadığı mənzərə eynidir. Zaman qısa, məsafə məhdud, amma içimizdəki arzu, istək adlandırdığımız inadkar yol isə sonsuzdur. Biz buna bəlkə də "qısa məsafəyə uzun qaçış" adını da verə bilərik.

İnsan qəribə bir varlıqdır. Dünyadakı ömrünün hüdudlarını çox yaxşı bilir. Bilir ki, bu dünya heç kimə əbədi məskən olmayıb və olmayacaq da. Buna baxmayaraq həmin bu insan içində elə böyük xəyallar, elə uzaq hədəflər və bitmək bilməyən arzular daşıyır ki, sanki əsrlər onun üçün çox kiçik bir zaman dilimidir. Biz bir göz qırpımında bitəcək bir ömrün içində əsrlərə sığmayacaq abidələr ucaltmağa çalışırıq. Və ən maraqlısı da odur ki, bizi insan edən, bizi ayaqda saxlayan və bu dünyanı gözəlləşdirən güc də elə bu ziddiyyətin özündə gizlənib.

Qısamüddətli bir ömürdə uzunmüddətli xəyallar qurmaq bir qəflət deyil, əksinə, insani bir ümiddir. Lakin burada incə bir tarazlıq var: bu qaçışda nəfəsimizi necə tənzimləyirik? Dünyanı əbədiymiş kimi zənn edib hər şeyi unuduruqmu, yoxsa fanilik hissi ilə hər şeydən əlimizi-ətəyimizi çəkirikmi?

Bax, tam bu yerdə neçə əsr bundan əvvəl gələn və insan psixologiyasının, varlığının ən mükəmməl formulunu verən o mübarək tövsiyə ağlımıza, ruhumuza işıq salır. Həzrət Peyğəmbərimiz (s.ə.s.) buyurur: "Bu gün öləcəkmiş kimi axirət üçün, heç ölməyəcəkmiş kimi dünya üçün çalışın".

Bu hədisi-şərif, əslində, içimizdəki o "qısa məsafəyə uzun qaçış"ın ən gözəl yol xəritəsidir. O bizə demir ki, ömür qısadır, hər şeyi buraxın və sadəcə sonrasını düşünün. Və ya demir ki, dünya gözəldir, axirəti unudub bura qapanın. Bu sözlər bizə ruh yüksəkliyi və möhtəşəm bir tarazlıq aşılayır. "Heç ölməyəcəkmiş kimi dünya üçün çalışmaq" – ağac əkməkdir, elm öyrənməkdir, gələcək nəsillərə qalacaq bir irs qoymaqdır, xəyal qurmaq və o xəyalın arxasınca getməkdir. Bu, dünyaya dəyər qatmaq, onu abad etmək missiyasıdır. Eyni zamanda, "bu gün öləcəkmiş kimi axirət üçün çalışmaq" isə o qaçışın ortasında bizə imanımızı, vicdanımızı, ədalətimizi, səmimiyyətimizi və qəlbimizi qorumağı xatırladır. Bizə "yavaşla və hara qaçdığını unutma" deyir.

Biz qısa bir məsafənin yolçularıyıq, bəli. Amma içimizdəki o uzun qaçış, xəyallarımız, dünyaya buraxmaq istədiyimiz xoş izlər bizim bu həyatdakı imtahanımız və gözəlliyimizdir. Əsas odur ki, qaçarkən yıxılmayaq, ətrafımızdakıları sındırmayaq və ən vacibi: bu iki dünya arasındakı o müqəddəs tərəzini heç vaxt itirməyək.

Yolumuz qısa ola bilər, amma qoy xəyallarımız və əməllərimiz o yolu əbədi etsin.

# SƏHV YÖNLƏNDİRİLMİŞ ENERJİ



Qardabanidə baş verən son faciədən sonra çox adam sürətdən, qayda pozuntusundan, yol təhlükəsizliyindən danışdı. Danışılması yaxşıdır. Hətta bu müzakirələr uzun müddət davam etməli və cəmiyyətin müzakirə müstəvisində "pin" olmalıdır. Çünki burada məsələ görünəndən daha dərindir. Çünki burada söhbət təkcə maşından getmir. Maşın sadəcə görünən hissədir. Əsl problem isə insanın içində və cəmiyyətin ruhundadır.

Əsl sual budur: Niyə yeniyetmə-gənclər sürəti həyatın mənasına çevirməyə başlayır?

İnsan yalnız əylənmək üçün özünü təhlükəyə atmır. İnsan bəzən içindəki boşluğu hiss etməmək üçün təhlükəyə yaxın gedir. Bu gün Qardabanidə maşın bir nəqliyyat vasitəsi deyil. O, psixoloji və sosial simvoldur: güc simvolu, görünmək vasitəsi, kişilik nümayişi, azadlıq illüziyası, qorxmazlıq maskasıdır. Bir çox yeniyetmə-gənc üçün sürət sadəcə sürət deyil. O, "mən varam" demək üsuludur. Çünki insan özünü mənalı hiss etməyəndə, görünməyəndə, təsirli olmadığını düşünəndə riskə yaxınlaşır. Əlxüsus bizim yeniyetmə oğlanların psixologiyasında bu, daha güclü hiss olunur.

Kənddə və ya kiçik şəhərdə, onlar üçün maraqlı olmayan şəhərdə böyüyən bir çox gəncin həyatı dar çərçivədə keçir. Eyni küçələr, eyni insanlar, eyni söhbətlər, gələcəklə bağlı qeyri-müəyyənlik. Belə mühitdə adrenalin təkcə həyəcan yox, varlıq hissinə çevrilir.

Həmişə münasibətdə olduğum yeniyetmə-gənclərin söhbətindən belə nəticə çıxardım ki, sürətlə maşın sürəndə onlar özünü güclü, sərbəst, qorxmaz, görünən hiss edirlər. Deməli, bu hiss o qədər güclü olur ki, ölüm təhlükəsi belə ikinci plana keçir. Ən qorxulusu isə budur ki, bu artıq fərdi problem olmaqdan çıxıb keçid dövrünü yaşayan və gəncliyin astanasına yeni qədəm qoymuş kəsim üçün "kollektiv mədəniyyətə" çevrilib.

Bir məqam yenə var, həmin yaş kateqoriyası tək olanda etməyəcəyi şeyi dost qrupunda edir. Çünki qrup psixologiyası insanı dəyişir. Ayrı-ayrılıqda sakit görünən uşaqlar birlikdə tamam başqa davranış göstərə bilir.

Çünki qrup daxilində: risk qəhrəmanlığa çevrilir, qorxu zəiflik sayılır, ehtiyatlı olmaq utanc kimi görünür. Və bu zaman ağıl yox, kollektiv enerji işə düşür. Əslində, bu, qədim bir instinkti xatırladır: kişi qrup daxilində özünü sübut etmək istəyir. Tarixin müxtəlif dövrlərində bu ehtiyac ovçuluqla, müharibə ilə, fiziki sınaqlarla ifadə olunurdu. Müasir dövrdə isə bəzi yerlərdə bu ehtiyac sürət və risk kultuna çevrilib. Yəni bu tərəfdən baxanda, problem maşın deyil, problem idarə olunmayan kişi enerjisidir. Əgər cəmiyyət o enerjiyə sağlam istiqamət vermirsə, o enerji özünə təhlükəli yol tapır.

Müşahidələrimə söykənib dəfələrlə dediyim bir şeyi yenə nəzərinizə yetirim. Ağrılı məsələlərdən ən başlıcası budur ki, bir çox yeniyetmə-gəncimizin daxilində böyük emosional boşluq var. Və bu boşluq hər zaman depressiya kimi görünmür. Bəzən o, həddindən artıq sürət, aqressiya, ölçülməmiş risk, gecə həyatı, özünü sübut etmə ehtiyacı kimi ortaya çıxır. İnsan bəzən sakit dayananda öz daxilini eşitməyə başlayır. Ona görə bəzi gənclər daim səs, sürət və hərəkət axtarır. Çünki sakitlikdə öz boşluğu ilə üz-üzə qalır.

Qardabanidə yuxarıda dəfələrlə qeyd etdiyimiz yaş kateqoriyasında təhlükəli bir "kişilik modeli" formalaşmağa başlayıb: sürətli sürən oğlan; qayda pozan oğlan; risk edən oğlan "güclü", "hörmətli", "seçilən" hesab olunur. Halbuki məntiqlə bu tam əksinə hesab olunmalı idi.

Səbəbi yanlış kollektiv enerjinin içində formalaşmalarıdır. Və müəyyən yaş dövründə insanın beyni riskin nəticəsini tam hiss etmir. "Mənə heç nə olmaz" deyir.

Tarix boyu ölümə yaxın davranışlar həmişə olub. Çünki insanın içində həm yaşamaq instinkti, həm də sərhədi aşmaq arzusu var. Mədəniyyətin rolu isə həmin enerjini idarə etməkdir. Əgər cəmiyyətin formalaşdırdığı mədəniyyət bunu idarə etmirsə, başqa qondarma mədəniyyətlərin təsirinə düşür. Bu problemi yalnız polis həll edə bilməz, yalnız məktəb də həll edə bilməz, yalnız ailə də yetərli deyil. Çünki bu artıq kollektiv şüur problemidir.

Cəmiyyət kimi biz nəyi alqışlayırıqsa, gənclər ona çevrilmək istəyir. Əgər hörmət – ağıl yox, məsuliyyət yox, xarakter yox, sürət üzərindən qurulursa, güclü əzələ üzərində qurulursa, maskulinlər üzərində və faydasız, ziyanlı, müvəqqəti kollektiv "moda-niyyət" üzərində qurulursa onda faciələr qaçılmaz olur.

**Həmid Sadıx**

# SUSARAQ YORULAN İNSANLAR



Ətrafımızdakı insanlar bəzən səssizliyə qərq olurlar. Nə yaşadıqlarını, nə hiss etdiklərini, qısası, dərdlərini başqaları ilə bölüşmədikləri üçün heç kim onların daxili dünyasında nə baş verdiyindən xəbər tutmur. Bu səbəbdən hər kəs onların xoşbəxt olduğunu, həyatlarının güllük-gülüstanlıq içində olduğunu düşünür. Halbuki bu səssizlik hər şeyin yolunda olduğu və ya onların bilərəkdən susduğu mənasına gəlmir. Təəssüf ki, bir çoxumuz bunu başa düşə bilmirik. Çünki bəzi insanlar dərdlərini fəryad edərək deyil, susaraq yaşayırlar.

Onlar hər gün içlərində qopan qasırğanı gizlədib, üzlərinə təbəssüm maskası taxmağı öyrənirlər. Çünki yaxşı bilirlər ki, dünyanın diqqəti yalnız qışqıran əzablara yönəlir, səssiz əzabları isə heç kim görmək istəmir. Yalandan "yaxşıyam" deməklərinin arxasında isə yuxusuz gecələr, içdən-içə sınmaq və dağ boyda yorğunluq gizlənir. Bu yalan, əslində, ətrafa edilən bir yardım çağırışı deyil, ruhun özünü qorumaq üçün sığındığı axırıncı qaladır. Onlar hər səhər güzgüdə qəlb qırıqlarını toplayıb, heç nə olmamış kimi həyata davam edən yorğun "xoşbəxtlərdir".

Müasir dövrdə insanların çoxu hisslərini açıq şəkildə ifadə etməkdə çətinlik çəkir. Çünki artıq heç kim qarşısındakına tam olaraq qulaq asmaq istəmir, dinləyib dərdinə şərik olmur. Hər kəs danışır, amma çox az insan eşidib başa düşür. Bəzən isə eşitsə də başa düşmür. O insan da bir dəfə başa düşülmədiyini hiss etdikdə zamanla susmağa başlayır. Əvvəl dərdini danışır, sonra qısa cavablar verir, sonda isə tamamilə içinə qapanır. Hər kəs çox yaxşı bilir ki, bəzi yaraların dərmanı söz deyil, başa düşülməkdir.

Susaraq yorulan insanlar, əslində, həyatda ən çox mübarizə aparan insanlardır. Onlar hər şeyi içində həll etməyə çalışırlar. Ağlayanda gizlincə ağlayır, hətta yorulanda belə "keçər" deyib özünü ovudur, başqalarını incitməmək üçün özlərini susdururlar. Halbuki insan öz hisslərini boğduqda daxilində çox ağır bir yük yaranır və zaman keçdikcə bu yük insanın ruhunu yorur, onu həyata qarşı həvəssizləşdirir.

Ən təhlükəlisi isə odur ki, belə insanlar çox vaxt güclü görünürlər. Hamı onların səbirli, möhkəm və soyuqqanlı olduqlarını hesab edir. Amma heç kim susan insanların gecə başını yastığa qoyanda hansı fikirlərlə boğuşduqlarını, nə üçün göz yaşı tökdüklərini bilmir. İnsan bəzən o qədər yorulur ki, artıq danışmağa belə taqəti qalmır. İçində min cümlə olur, amma birini belə dilə gətirə bilmir.

Psixologiyada uzun müddət hissləri içində saxlamağın emosional tükənmişlik yaratdığı yazılır. Həmin insan hər şeyi içinə atmaqla bir gün ən kiçik hadisədə belə partlaya biləcək hala gəlir. Çünki susmaq sakit olmaq demək deyil. Bəzən susmaq insanın içində qopan ən böyük hayqırtıdır.

Bu gün həyat insanlardan daim güclü olmağı, mübarizə aparmağı tələb edir. İnsan bunu bacarmaq üçün əlindən gələni edir. Bəzən isə bütün çabaları boşa gedir. "Keçər", "fikir etmə", "güclü ol" kimi təsəlli ifadələri çox asan deyilir. Amma heç kim insanın nə qədər yorulduğunu həqiqətən hiss etmir. Halbuki bəzən bir insanın ehtiyacı olan tək şey mühakimə edilmədən dinlənməkdir.

Susaraq yorulan insanlar ən çox da gecələr ağırlaşır. Gün ərzində gizlətdikləri hisslər pusquda dayanmış kimi, gecə səssizliyində üzə çıxır. Onda da insan özündən qaça bilmir. Səssizlik bəzən ən ağır söhbətə çevrilir. Heç kimə deyilməyən cümlələr insanın beynində hər an təkrar-təkrar səslənir.

Nəticə olaraq, hər susan insanı xoşbəxt zənn etmək olmaz. Bəzən ən böyük yorğunluq görünməyən yorğunluqdur. İnsan ruhən tükəndikdə bunu hər zaman sözlə ifadə etmir. Elə insanlar var ki, sadəcə bir dəfə "mən də yoruldum" demək istəyirlər, amma illərlə susmağa öyrəşdikləri üçün bunu belə deyə bilmirlər.

Bu səbəblə, bəzən insanların dərdlərinə dərman ola bilməsək də, onlara qulaq asmaq, onları həqiqətən başa düşməyə çalışmaq belə böyük bir yaxşılıq olur.

**Afaq Azər**

# ƏZİZİM ƏZİZDİR...



Bu gün avropaların qəbul etmədiyi milli, etnik dəyərlərimizin fövqündə o qədər əxlaqi, mənəvi ucalıqlar var ki, sayaraq yazsam çox uzanar. Xülasə, bir neçəsinə nəzər salaq.

Bizim məktəbdə bir Əbəş müəllim vardı. Çox zəhimli müəllim idi. Sinfə ovuclarını bir-birinə sürtərək gəlirdi, yəni kimisə şapalaqlayacaq. Sinfimizdə bir inadkar, dəcəl oğlan vardı, həm də digər müəllimimizin nəvəsi idi. Başqa müəllimlər onu yola versələr də, Əbəş müəllim üçün fərqi yox idi – dərsə hazır deyildisə, dərsi pozan bir hərəkəti vardısa mütləq cəzalanmalıydı. Əbəş müəllimin məşhur şapalağından kimsə sığortalanmamışdı. Ani diqqətsizlik, dərs vaxtı parta yoldaşınla danışmaq, dərsə qulaq asmamaq, hazırlıqsız olmaq birbaşa cəzaya yaxınlaşmaq idi. Deməli, özünü sığortalamağın – müdafiənin yeganə yolu intizamlı olmaq idi. Müəllimin yaratdığı mühit istəmədən belə şagirdi özünütərbiyəyə yönəlirdi. Qorxudan, həyəcandan yaranan intizam həyati vərdişə keçirdi və özündən asılı olmadan bir tərbiyə, yəni böyüyə hörmət, ətrafa diqqət, özünə nəzarət yaradırdı.

Böyüklərlə pərdəli-məsafəli münasibət isə, bəlkə də, cəmiyyətimizi məhvərində saxlayırdı. Atanın yanında övladını qucağına götürüb əzizləməyi böyüyə hörmətsizlik hesab etməyən oğul avtobusda digər ataya yer vermədiyinin fərqində olmayacaq. Beləcə, tarazlığımız – böyük-kiçik tarazlığı pozulur. Qadının əxlaqı düşüncəsi ata-qardaş-oğul üçbucağının şərəfini öndə tutmaqla, heç bir dildə tərcüməsi olmayan NAMUS  çərçivəsini yaratmışdı.

Beləcə, uşaqlara azadlıq verməklə "Əbəş müəllimləri" itirdik. Sonra böyüklərimizə baxdığımız müqəddəs nəzərlərimiz KORŞALDI, NAMUS çərçivəsini sındırmaqla mühitin əxlaq zəncirində qırıqlıqlar yarandı. Sonra, sonra da "sevgi azaddır", "gənclik müstəqillikdir" deyərək mühitimizdə xeyli boşluqlar yaratdıq.

Şagirdlərə isə qəti acı söz demək olmaz, "112" nömrəsini ikinci sinifdən öyrətmişik...

Bugünkü özgürlüklər bizə nə verdi? Bəs biz valideynlər nə edirik? Hər nə var yıxırıq "partiya və hökumətin" üzərinə. Desəm hər şey məktəbdən başlayır... Yaxın keçmişin nənələrinin gündəlik sözünə çevrilmişdi: "Əzizim əzizdir, tərbiyəsi ondan da əzizdir". Böyük mənası vardı...

"Əti sənin, sümüyü mənim" deyən babalar birdən-birə mollaxanadan allahsızlığa düşdülər. Bəs niyə allahsız olmadılar. Gizlicə ibadət də elədilər, ayinləri də etdilər, milli adətləri də qorudular. 70 il əsarətdə oldu, nə dilini itirdi, nə dinini, adətləri qorudu. Böyük bir imperiya nənələrimizə təsir edə bilmədi. Bəs o nənələrin nəvələri niyə bu gün hər qarşılaşdığı çətinlikdə günahkar gah dövləti, gah da mühiti görür?..

Həyata atılan uşaq körpə fidandır. Onu valideyn istiqamətləndirir. "Müəllimlər, görəsən, çörək yeyirmi" deyən nənələrin nəvələri "Müəllim kimdir mənim uşağıma acı söz deyə" deyirsə və bu uşağın şahidliyi ilə olursa, sabah bu təsir mütləq cəmiyyətə və ailəsinə yönələcək. Mütləq!

Hər gün məktəbə  artıqlaması ilə xərclik gətirən şagird o pulu atanın, ya ananın necə əziyyət çəkməklə  qazandığının fərqində olmadan xərcləyir. Axı o ana məktəbdə "Qazanılmış manat hekayəsi"ni öyrənmişdi. Bilirdi ki, o pulu özü qazananda əli yana-yana ocaqdan çıxarmayınca qədir bilməz.

"Mən dəblə geyinmədim, dırnaq, saç düzümü etməmişəm, qoy qızım etsin"; "mən kafedə rahat oturmadım, qoy oğlum otursun" deyərkən o oğul heç vaxt qazanılmış manatın qədrini bilməyəcək və ödəməni "borcunuzdur" deyə tələb edəcək.

Bəyənmədiyimiz köhnə əxlaq dərslərinin təkamülü məhz bu yollardan keçirdi. Bu gün 20 yaşı tamam olmamış oğlanalara avtomobil alan atalar öz yaşamadıqlarını övladına yaşatmaqla özləri də bilmədən onları kabusa doğru yönəldirlər. Son zamanlar yüksək sürət qurbanlarının faciəsi o qədər ardıcıl baş verirdi ki, nə günahkarları, nə səbəbkarları, nə də həqiqəti düşünməyə vaxt olurdu. Ən pis tərəfi o idi ki, böyük fəlakətlərdən bir kimsə nəticə çıxarmır. Arzuolunmaz nəticəyə səbəb axtaran ata-analar ən böyük VAYISIN  özləri olduğunu düşünürmü; yəqin ki, güzgüdə görünən o böyük səbəbi görmək istəmir.

Bəli, həmişə səbəbi kimdəsə axtarmayaq. Mənim bildiyim bir həqiqət var: həyatda insanın özünün özünə etdiyi pisliyi də, yaxşılığı da özü etdiyi qədər kimsə edə bilməz.

**Esmira Ələkbərli**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# GİVİ MİKANADZE ALİ TƏHSİL SİSTEMİNİN İSLAHATI HAQQINDA DANIŞIB



Təhsil, elm və gənclər naziri Givi Mikanadze Gürcüstan Parlamentində, interpelyasiya formatında, ali təhsil sisteminin islahatı haqqında danışıb.

Nazir yüksək ixtisaslı yerli və beynəlxalq ekspertlərin cəlb olunduğu ali təhsilin maliyyələşdirilməsinin yeni modelinə diqqət çəkib. Onun sözlərinə görə, akademik proqramların qiymətləndirilməsi metodologiyasını formalaşdırmaq üçün nazirlik müxtəlif ali təhsil müəssisələrinin, o cümlədən Vaşinqton, Miçiqan və Kolorado universitetlərinin təcrübəsini təfərrüatlı şəkildə öyrənib. Bu isə Gürcüstanın reallığına və ehtiyaclarına uyğunlaşdırılmış, ən yaxşı beynəlxalq təcrübəyə əsaslanan modelin hazırlanmasını nəzərdə tutur.

*"Ali təhsilin maliyyələşdirilməsinin yeni modeli iki komponentli sistemə – baza maliyyələşməsinə və nəticəyə əsaslanan maliyyələşməyə söykənir. Bu, bir tərəfdən dövlət universitetlərinin institusional dayanıqlığını və maliyyə muxtariyyətini təmin edəcək, digər tərəfdən isə keyfiyyətə, nəticələrə və milli prioritetlərə yönəlmiş inkişafa töhfə verəcək.*

*Baza maliyyələşməsi tələbələrin sayına, proqramların dəyərinə və universitetin tədris prosesi ilə bağlı əsas ehtiyaclarına görə müəyyən edilir. Onun məqsədi universitetlərin sabit fəaliyyətini, institusional dayanıqlığını və maliyyə muxtariyyətini təmin etməkdir. Mərhələli şəkildə qüvvəyə minəcək nəticəyə əsaslanan maliyyələşmə isə universitetlərin konkret nəticələr əldə etməsi ilə, o cümlədən təhsilin keyfiyyətinin yüksəldilməsi, tədqiqat və innovasiyaların inkişafı, beynəlmiləlləşmənin gücləndirilməsi və regional inkişafa dəstək verilməsi ilə bağlı olacaq.*

*Sözügedən model dövlət maliyyələşməsinin ali təhsilin əlçatanlığının və keyfiyyətinin artırılmasına, tədqiqat potensialının gücləndirilməsinə və universitetlərin uzunmüddətli institusional inkişafına yönəldilməsi üçün zəmin yaradır",* – deyə Givi Mikanadze bildirib.

Nazirin sözlərinə görə, 2026-2027-ci tədris ilindən etibarən dövlət ali təhsil müəssisələrində təhsilin pulsuz olması mühüm əhəmiyyət kəsb edir – bu görünməmiş qərarı hakim komanda qəbul edib.

*"Xüsusilə mühümdür ki, Gürcüstan hökuməti tərəfindən təsis edilmiş ali təhsil müəssisələrində Gürcüstan vətəndaşlarının akademik ali təhsilin birinci və ikinci pillələrinin (bakalavriat və magistratura) təhsil proqramları üzrə təhsili tamamilə dövlət tərəfindən maliyyələşdiriləcək. Bu görünməmiş qərarı hakim komanda qəbul edib. Bununla yanaşı, təhsilin dövlət tərəfindən maliyyələşdirilməsinin qayda və şərtləri Gürcüstan hökuməti tərəfindən müvafiq hüquqi aktla müəyyən ediləcək.*

*Təqdim etdiyimiz maliyyələşdirmə modelinin tətbiqi dövlət universitetlərinin əmək bazarı və ölkənin inkişaf prioritetlərinə uyğun təhsil proqramları hazırlamasına, yüksək keyfiyyətli tədris və tədqiqat mühitini təmin etməsinə, həmçinin akademik, inzibati və köməkçi heyət üçün layiqli və rəqabətədavamlı əməkhaqqı şəraiti yaratmasına zəmin yaradacaq",* – deyə nazir qeyd edib.

Givi Mikanadze universitetlərdə kvota sayının müəyyən edilməsi prosesində əmək bazarının tələblərinin nəzərə alınmasını xüsusi vurğulayıb. Konkret olaraq, onun bəyanatına görə, İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi tərəfindən aparılan əmək bazarı təhlili universitetlərlə əmək bazarının real tələbləri arasında genişmiqyaslı disbalansı üzə çıxarıb. Məhz bu disbalansı aradan qaldırmaq üçün universitetlərə qəbul kvotalarının müəyyən edilməsinə ehtiyac yaranıb.

*"Gürcüstanın Baş naziri İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi tərəfindən aparılan əmək bazarı təhlilinin təqdimatını etdi. Bu təhlil ali təhsil müəssisələri ilə əmək bazarının real tələbləri arasında mövcud olan genişmiqyaslı disbalansı üzə çıxardı. Əmək bazarı təhlilinin ortaya qoyduğu məlumatlara ümumi şəkildə baxsaq, real olaraq bu göstəricilərə görə hər il təxminən 14400 tələbə universitetlərə qəbul olunmalıdır. Kvotaların bölüşdürülməsi baş verəndə biz 5 illik perspektivi hesabladıq və həmçinin bu gün mövcud olan şəraitləri nəzərə aldıq. Məsələn, hər il 3600 nəfərin qəbul olunduğu hüquq sahəsində tələbat təxminən 700 hüquqşünasdır, lakin maraq o qədər yüksəkdir ki, bunu nəzərə almamaq olmazdı. Müvafiq olaraq, 3600-dən kəskin şəkildə 700-ə deyil, 1500-ə düşdük. Bu amillər nəzərə alınmaqla, nəticə etibarilə bu il 21600 tələbə üçün qəbul elan olundu.*

*Qeyd etmək lazımdır ki, islahat konsepsiyasının hazırlanması prosesində nazirlik həm Avropa Ali Təhsil Məkanı (EHEA) yanaşmalarını, həm də dövlətin ali təhsil sisteminin strateji planlaşdırılmasında, resursların konsolidasiyasında, keyfiyyətin qiymətləndirilməsində və əmək bazarına uyğunluğunun təmin edilməsində fəal iştirak etdiyi ayrı-ayrı ölkələrin təcrübəsini öyrənib. Lakin prioritet, sözsüz ki, milli ehtiyaclardır",* – deyə Givi Mikanadze bildirib.

# GÜRCÜSTANDA YENİ PEŞƏ MƏKTƏBLƏRİ TİKİLƏCƏK

Gürcüstanda peşə təhsili şəbəkəsi genişlənir. Təhsil, elm və gənclər naziri Givi Mikanadze parlamentdə interpelyasiya formatında çıxışı zamanı bildirib ki, bir neçə regionda yeni təhsil müəssisələrinin tikintisinə artıq bu il başlanılır.

Nazirin sözlərinə görə, bu gün ölkə miqyasında 29 dövlət peşə kolleci fəaliyyət göstərir, həmçinin təxminən bir o qədər də özəl peşə təhsili müəssisəsi var. Nazir bildirib ki, dövlət həm mövcud şəbəkənin gücləndirilməsini, həm də regionlarda yeni təhsil məkanlarının yaradılmasını planlaşdırıb.

*"Sizə deyim ki, biz əhatə dairəsini genişləndiririk. Bu il Martvilidə, Axalkalakidə peşə məktəbinin tikintisinə başlayırıq; bu il Qurcaanidə şərabçılıq istiqaməti üzrə peşə məktəbinin tikintisinə başlayırıq; Tbilisidə iki məkanda peşə məktəbinin tikintisini planlaşdırırıq, Qori Universitetinin nəzdində peşə məktəbinin tikintisini nəzərdə tutmuşuq, həmçinin Lentexidə, bizə bina verilən kimi orada Lentexi və Saqeri əhalisinə dəstək olacaq peşə məktəbinin açılışını edəcəyik",* – deyə nazir bildirib.

Onun sözlərinə görə, nazirlik mövcud peşə məktəblərini həm infrastruktur, həm də proqramlar baxımından gücləndirməyi planlaşdırır.

*"Məqsədimiz peşə məktəblərini həm infrastruktur, həm də proqramlar baxımından gücləndirməkdir. Proqramları tələsik deyil, tədqiqatlara əsaslanaraq daxil etməliyik ki, regionun spesifikasına və əmək bazarının tələblərinə real cavab versin. Məsələn, Bolnisidə peşə məktəbinin tikintisi başa çatıb və proqramların avtorizasiyasına başlanmalıdır, bu, tamamilə tibbi təmayüllü istiqamət olacaq, orada əczaçılıq, tibb bacısı və stomatologiya istiqamətləri öyrədiləcək. Borjomidə, infrastrukturu kifayət qədər böyük olan "Tori" peşə məktəbində turizm və meşə təsərrüfatı istiqamətləri üzrə təhsil müəssisəsi yaradacağıq və bu cür formasiya ilə həm əhatə dairəsinin genişləndirilməsini, həm də əhaliyə dəstək olmağı davam etdiririk",* – deyə G.Mikanadze qeyd edib.

Nazirin bəyanatına əsasən, Gürcüstanda peşə təhsili həm dövlət, həm də özəl məktəblərdə dövlət tərəfindən tam maliyyələşdirilir ki, bu da sistemin əlçatanlığını daha da artırır və gənclərə məşğulluq üçün daha çox imkanlar yaradır.

# ABİTURİYENTLƏRİN ÇOXU TARİX VƏ RİYAZİYYAT FƏNNİNİ SEÇİB

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin statistik məlumatlarına görə, bu il tarix və riyaziyyat fənlərini daha çox abituriyent seçib. Tələb olunan fənlər arasında biologiya, kimya, vətəndaş təhsili, coğrafiya, fizika, ədəbiyyat, həmçinin təsviri və tətbiqi sənət də var.

***Fənlərə görə abituriyentlərin sayı aşağıdakı kimidir:***

Tarix fənnini seçdi – 19700-dən çox abituriyent;

Riyaziyyat fənnini seçdi – 15400-dən çox abituriyent;

Biologiya fənnini seçdi – 4500-dən çox abituriyent;

Kimya fənnini seçdi – 2500-dən çox abituriyent;

Vətəndaş təhsili fənnini seçdi – 2500-dən çox abituriyent;

Coğrafiya fənnini seçdi – 2500-dən çox abituriyent;

Ədəbiyyat fənnini seçdi – 1700-dən çox abituriyent;

Fizika fənnini seçdi – 1100-dən çox abituriyent;

Təsviri və tətbiqi sənət fənnini seçdi – 280-dən çox abituriyent.

*"Məlumatlar göstərir ki, abituriyentlərin maraqları müxtəlifdir və həm humanitar, həm də dəqiq və təbiət elmləri istiqamətlərini əhatə edir. Tarix və riyaziyyata olan xüsusi tələbat, ötən ildə olduğu kimi, yenə də yüksəkdir.*

*Abituriyentlərin seçdiyi fənlərin statistikası onların maraqları, peşəkar prioritetləri və ali təhsil proqramlarına olan tələbat barədə mühüm məlumatlar verir",* – deyə Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzdən bildiriblər.

*Səhifədəki məlumatlar "edu.aris.ge" saytından götürülüb.*

***Gürcü dilindən tərcümə etdi Aynurə Əliyeva***

# "ÖZÜMLƏ MÜSAHİBƏ" RUBRİKASININ QONAĞI REJİSSOR, DRAMATURQ ABDULLA ELŞADLIDIR



**– Özünü təqdim et.**

– Mən İsmailov Abdula (Gürcüstanda belə yazılır). Abdulla Elşadlı kimi Azərbaycan teatr icmasında tanınıram. Rejissoram. Həm də dramaturq kimi də fəaliyyətdəyəm. 1994-cü ilin isti avqust ayının 22-də Marneuli rayonunun İmircala kəndində anadan olmuşam. 22 ildir Bakı şəhərində yaşayıram. Burada orta məktəbi bitirmişəm, sonra İncəsənət Universitetinə qəbul olmuşam – Musiqili teatr rejissorluğuna. Oranı bitirməmiş 3-cü kursda (2016-cı il) Cənab Prezidentin "2009-2019 Teatrların İnkişafı Sərəncamı" əsasında Moskvaya, Boris Şukin adına Teatr İnstitutuna qəbul oldum. Daha sonra bitirdim və 2021-ci ildən Akademik Rus Dram Teatrında çalışıram.

**– Teatra ilk gəlişin necə oldu?**

– Hər şey məktəbdən başladı. Məktəb tədbirlərində şeir deyirdim. Sonra tədbirləri mən başladım hazırlamağa. Daha sonra Zabrat "28 May adına Uşaq Kitabxanası"nın baş kitabxanaçısı Gülşən xanım gördü məni və kitabxananın KVN komandasına dəvət etdi. Orada da rejissor Anar Babalı gördü və Maştağa Mədəniyyət Evinə apardı. Artıq 10-cu sinifdən aktiv şəkildə dram dərnəyinə gedirdim və tamaşalarında oynayırdım. 11-ci sinifdə qərara aldım ki, aktyorluğa qəbul olacam. Elə həmin Mədəniyyət Evində ilk tamaşamı qurdum (əgər buna tamaşa demək olarsa, indiki baxışımla) – Fonvizin "Nadan övlad"ını. Oranın keçmiş direktoru baxdı tamaşaya və dedi ki, güclü rejissor əsası var və mesajı dəqiq ötürə bilirsən. Sən rejissorluğa ver sənədlərini. Elə də elədim. Əməkdar artist Nofəl Vəliyevin yanına hazırlığa getdim. Sağ olsun, pulsuz-parasız hazırladı və 2013-cü ildə Fikrət Sultanovun sinfinə rejissorluğa qəbul oldum. O vaxtdan bu yana artıq professional həyata qədəm qoydum. 1-ci kursun sonunda kurs işimi Gənc Tamaşaçılar Teatrının kiçik səhnəsində qurdum – H.Cavid "İblis".

**– Səni bu sənətə bağlayan əsas səbəb nə idi?**

– Səbəbləri çox uydura bilərəm. Gözəl sözlər deyə bilərəm. Amma deməyəcəm. Heç bir səbəb-zad yox idi üzdə... Sadəcə, bu, taledir. Allah məni burada görür və mən burada daha çox fayda verə bilərəm – ilk öncə özümə, sonra isə cəmiyyətə, Vətənimə. Bu həyat tərzidir. Rejissorluq, ümumiyyətlə, həyat tərzidir. Hər şeyə artıq rejissor kimi yanaşırsan sən. Hətta şəxsi həyatına belə, ətrafına belə, dostlarına belə, valideynlərinə belə. Belə olmayanda isə Allah (bizim uydurmamızda TEATR) səni özü dışlayır teatrdan və uzaqlaşdırır.

**– Rejissor olmaq sənə görə idarə etməkdir, yoxsa hiss etdirmək?**

– İlk öncə idarə etmək. Özü də sərt idarəçilik. Gestapo idarəçiliyi. Rejissorluq demokratik sənət deyil. Demokratiyanı, ümumiyyətlə, sevmirəm. O nədir ki? Heç Allah belə demokratik deyil. Deyir mən dediyim kimi qıl namazı. Sübh namazı 2 rükətdir. 3, 4, 7, 4 rükət qılmaq istəyirəm axı, deyirsən. Deyir, xeyr, mənə sübh 2 rükətli lazımdır. Əmrindən çıxanda isə cəzanı alırsan. Özü də şiddətli töhmətlə. Bir növ teatr rejissorluğu da belədir. Ona görə hiss, miss-zad boş şeydir. Nə hiss? Hisslə sənət olur? Hiss aktyor üçündür. Rejissor isə hissi söndürüb, beynini açmalıdır, qoşmalıdır. Onda teatr olur. Əks halda isə dərnək olur – dram dərnəyi.

**– Rejissor olaraq heç bu tamaşa alınmadı deyin olub?**

– Bir dəfə olub. Çox pis "pravalım" olub. Özü də biabırcasına pis. Bir həftə depressiyada olmuşam. Bu mənim üçün çox böyük dərs oldu.

**– Səhv kimdə idi? "Pravalın" səbəbini kimdə görürsən?**

– Özümdə. Səhv əsər seçimi – bu idi səbəb. Mən özüm öz məktəbimin prinsiplərinə, ümumi teatr prinsiplərinə zidd iş görmüşdüm. Əsəri seçəndə truppanın gücünü nəzərə almamışdım.

**– Sevdiyin rejissor kimdir? Kimi özünə kumir bilirsən?**

– Kumirim yoxdur. Kumir anlayışı səhvdir, ümumiyyətlə. Bu geniş mövzudur. İndi istəmirəm burada danışmaq. Qısası, rejissor kimi kumirim yoxdur. Amma sevdiyim və rəğbət bəslədiyim, lazım olsa oğurluq etdiyim rejissorlar var. Biri rəhmətlik Rimas Tuminas. Dahi idi. Bizim akademiyada dərs deyirdi. Onun tamaşaları möcüzə idi. Ha düşünürəm ki, necə edirdi belə alınırdı tamaşaları, tapa bilmirəm. Elə möcüzə də bunda idi. Məsələn, "Şah Edip", "Vanya dayı", "Gülümsə bizə, ay Allah" tamaşaları – bax, adi yutubda bax və öyrən. Mizan qurmağı öyrən. Bütün mizanlar məntiqi şəkildə bir-birinə bağlıdır. Qırılmalar yoxdur. Personajların coğrafiyası dəqiq qurulub. O boyda şərtiliyin içində sənin beynində real coğrafiya yaranır. Və təbii ki, aktyorla işləməsi... Bu, ayrıca bir möcüzəsidir Tuminasın. İkinci rejissor, hansı ki, özümə Ustad deyərdim sayıram – Dmitri Krımov. Dahidir. Dahi ona görə deyirəm ki, onun sənətini ifadə etmək üçün ondan yüksən söz bilmirəm. O "Genius"dur.

**– Sən dedin "arada oğurluq etdiyim" rejissorlar var və ya rejissor. Yəni, belə çıxır ki, sən oğurluq edirsən?**

– Sən oğurluğu nəyi başa düşdün ki? Forma, həll, mizan?

**– Başqa nə oğurlamaq olar ki? Forma, təbii ki.**

– (Gülür) Xeyr. Bu oğurluq yox, əxlaqsızlıq və qəsbkarlıqdır. Mən forma, həll oğurlamıram, mən rejissura açarlarını oğurlayıram. İşləmə prinsiplərini, prosesi qurmağı oğurlayıram. Əsərə münasibəti, "şərti, uydurma dünyanı" qurmağı oğurlayıram. Bu da bir bacarıqdır. Ustadım Andrey Leviçki "Крадите, как художник" deyərdi. Yəni "Yaradıcı kimi oğurlayın". Demək, oğurluq etmək üçün birinci növbədə gərək yaradıcı olasan, rejissor olasan. Yəni ümumi rejissura prinsiplərini biləsən ki, sən lazımi açarı seçib oğurlaya biləsən. Sənətin ümumi prinsiplərini bilmədinsə, sən bunu edə bilməyəcəksən və sənin bayaq dediyin kimi, firmanı, həlli oğurlayacaqsan, daha çox isə formanı. Çünki bəlkə də həlli də oğurlamaq bir istedaddır. Çünki sən, ümumiyyətlə, bilməlisən həll nədir ki, onu tapıb özündə tətbiq edəsən.

**– Həm də dramaturqsan.**

– Yox, yazmaq və tərcümə etmək xobbimdir. İldə bir pyes yazam, ya yazmayam. Demək professional deyiləm. Sadəcə ideya gəlir, mövzu yaranır, dramaturji həllini tapıram və yazıram. Sonuncu yazdığım "-" postapokaliptik mono dramım "Characters" müasir dramaturgiya festivalında 2-ci yerə çıxdı. Bir əsərim isə Füzuli Teatrında Mirzə Nicatın quruluşunda repertuarda gedir. Amma dramaturgiyanı bilirəm. Bu isə üstünlüyüm deyil. Mən rejissoram və bunu bilməyim ilk şərtdir ki, dramaturji materialla işləyə biləm.

**– Postmodern rejissorsan. Adi rejissorluqdan fərqi nədir ki, bu rejissorluğun?**

– Kim deyir, postmodern rejissoram mən? (Gülümsəyir).

**– Elə deyirlər. Hamı...**

– Səhv deyirlər. Ya da, qoy elə desinlər. Amma mən adi rejissura ilə məşğulam. Heç bir cərəyana özümü aid etmirəm. Yəqin quruluşlarım, əsərə yanaşmaq fərqlidir deyə belə təəssürat yaranır. Amma bu da ona görədir ki, mən əsəri həll edirəm, müəlliflə çox sərbəst davranıram. Əsər mənim ali məqsədimə qulluq edir. Ortada mən və ali məqsədim olur, sonra dramaturji material, sonra isə dramaturq. Onun üçün də belə həllər (yozum yox, yozum sözünə nifrət edirəm) yaranır. Amma nə ad qoyursan qoy, ortada əsas növbədə hekayə və problem olmalıdır. Bu ikisi olmadısa, istəyirsən postdramatik rejissor ol, istəyirsən postposthippermodernist rejissor ol... (dalını gətirmir.)

**– İndi hansı əsəri qurursan?**

– Hazırda Mədəniyyət Nazirliyinin göndərişi ilə Gəncə Dövlət Milli Dram Teatrındayam. "Öyrədərək öyrənirəm" layihəsi ilə. Bir ay burada olacağam. Bu layihəyə daxildir – aktyor sənəti üzrə Ustad dərslərim və tamaşa. Artıq prosses gedir. İyunun 25-də premyeramızdır. Teatrın kollektivi və əsas da aktyor truppası tam səfərbər olublar tamaşanın istehsalatına. Əsər isə özümündür. Adı belədir: "Zəhrimar". Narkomaniyaya aiddir. Daha doğrusu, mövzu narkomaniyadır. Amma səhnədə bir dənə də olsun narkoman görməyəcəksiniz. Adətən bu mövzuda film və ya tamaşalarda hamı qaşınır, ağrı içində olur səhnədə. Qışqır, bağır və sair – bunun kimi qeyri-professional dram dərnəyi səviyyəsində vasitələr. Amma bizim bu tamaşada bunlar yoxdur. Amma təsirli hekayə var. Özü də çox təsirli.

**– Sonda bir sual verim sənə. Teatr müqəddəsdir sənin üçün? Məbəddir?**

– Müqəddəs e... (Gülür). Müqəddəs məkanlar başqadır. Teatr isə "daxilində sənət məhsulu, yəni tamaşa istehsal edib, öz istehlakçısına satandır. Bir növ zavoddur. Bir zavod çörək istehsal edir, biri çəkələk, ayaqqabı, biz isə tamaşa. Burada müqəddəs nə var ki? Sadəcə, ruhi qatı var bunun (ruhsal yox, ruhi) – o da aktyordur.

**– Çox sağ ol müsahibə üçün.**

– Sən sağ ol.

***Qeyd edək ki, "Özümlə müsahibə" rubrikasında sual verən də, cavab verən də eyni adam olur. Sualları müsahib özü seçir. Müsahibədə heç bir senzuraya yol verilmir və olduğu kimi dərc edilir.***

# GÖZÜ AÇIQ KORLAR

Məqalələri yazarkən daha çox insanlıq, vicdan və mərhəmət xətti üzərində düşünürdüm. Yazılarım da zaman keçdikcə bu istiqamətdə formalaşırdı. Bu dəfə isə bir qədər fərqli bir mövzuya toxunmaq istədim. Əslində, yenə dolayı yollarla vicdana, insaniyyətə və məsuliyyətə gəlib çıxacağıq. Amma bu yazının mərkəzində başqa bir anlayış dayanır: gözü açıq korlar.

Hər dövrün, hər əsrin öz bəlası, öz xəstəliyi olub. Təbiət insanı necə müxtəlif xəstəliklərlə sınağa çəkibsə, insanlar da əsrlərlə onlara çarə axtarıblar. Təbiblər, alimlər, həkimlər müxtəlif dərdlərin dərmanını tapmağa çalışıblar. Amma, məncə, XXI əsrin ən böyük vəbası tibbi deyil, mənəvi bir xəstəlikdir – gözü açıq korluq xəstəliyi.

Yaradan insana sadəcə göz vermədi, ona ağıl verdi, vicdan verdi, düşüncə verdi, hiss etmək qabiliyyəti verdi. İnsan yalnız yemək, içmək, işləmək və günü başa vurmaq üçün yaradılmış bir varlıq deyil. İnsan gördüyünü anlamalı, anladığını dərk etməli, dərk etdiyindən nəticə çıxarmalıdır. Əks halda, sadəcə yaşamaqla ömür sürmək arasında ciddi fərq qalmaz.

Bəlkə "israf" deməyim sərt səslənə bilər. Amma ətrafda baş verən hadisələri gördükcə, insanların açıq-aşkar uçuruma doğru getdiyini müşahidə etdikcə yumşaq qalmaq çətinləşir. Çünki bəzən insanın gözünün görməsi kifayət etmir. Əsas məsələ baxmaq deyil, görə bilməkdir.

İnsan sahib olduğu ağıl və düşüncə ilə bəzən hələ baş verməmiş hadisələrin nəticəsini belə təxmin edə bilir, bir qığılcımın necə böyük yanğına çevriləcəyini anlayır. Amma təəssüf ki, çox zaman göz görür, lakin idrak etmir. İnsan qarşısındakı səhnəni izləyir, amma o səhnədən sonra açılacaq pərdəni görə bilmir. Bax, XXI əsrin vəbası da məhz budur.

Bu bəlanın ayaq səsləri illərdir eşidilir. Ailələrdə, cəmiyyətlərdə, münasibətlərdə, hətta insanın öz daxilində belə bu korluğun izləri görünür. Amma qəribədir ki, buna qarşı ciddi mübarizə aparılmır. İnsanlar təhlükəni görür, amma görməzlikdən gəlirlər. Sanki alışırlar. Sanki yanmağa doğru gedən bir evə tamaşa edib bunu adi bir mənzərə hesab edirlər.

Əgər yanan bir ev varsa və kimsə gözünü yumaraq o evə doğru gedirsə, onun yanması qaçılmazdır. Bunu anlamaq üçün alim və ya dahi olmağa ehtiyac yoxdur. Sadə bir düşüncə kifayətdir. İnsan bəzi nəticələri əvvəlcədən görə bilir. Amma problem də elə buradadır: görmək istəmir.

Bəzən düşünürəm, bəlkə insanlar həqiqətən də hər şeyi anlayırlar. Sadəcə məsuliyyət götürmək onlara ağır gəlir. Çünki görmək insanı hərəkət etməyə məcbur edir. Anlayan insan artıq susa bilmir. Dərk edən insan artıq bəhanələrin arxasında gizlənə bilmir. Buna görə də bəziləri görməməyi seçir. Çünki kor qalmaq bəzən vicdan yükündən qaçmağın ən rahat yoluna çevrilir.

Bu gün dünyanın ən böyük faciəsi insanların gözlərinin bağlı olması deyil, gözləri açıq halda kor yaşamalarıdır; baxdıqları halda görməmələri, eşitdikləri halda anlamamaları, hiss etdikləri halda susmalarıdır. İnsan bəzən bir həqiqəti görmədiyi üçün deyil, gördüyü həqiqətlə üzləşməyə cəsarət etmədiyi üçün kor olur. XXI əsrin vəbası da məhz budur: həqiqəti görə-görə ondan üz çevirmək.

Bəs bu korluğun çarəsi nədir? – Məncə, bu xəstəliyin dərmanı yenidən düşünməyi öyrənməkdir. İnsan özünü susdurmağı deyil, vicdanını dinləməyi bacarmalıdır. Çünki vicdan insanın daxilində sönməyə qoyulmayan bir işıq kimidir. O işıq tam sönmədikcə insanın həqiqəti görmək imkanı qalır.

İnsan hər gün özündən soruşmalıdır: "Mən doğrunu gördüyüm halda niyə susuram? Niyə yanlışın adiləşməsinə alışmışam? Niyə hiss etdiyim həqiqətlərdən qaçıram?" Bəlkə də bu suallar insanın gözünü açan ilk addım olar.

Bu gün cəmiyyətin ən çox ehtiyac duyduğu şey məlumat deyil. Çünki insan artıq hər şeyi görür, eşidir, bilir. Ən böyük ehtiyac vicdanlı düşüncədir. Çünki həqiqəti görmək üçün bəzən göz yox, ürək lazımdır.

İnsan öz vicdanının səsini uzun müddət susdura bilər, amma onu tamamilə öldürə bilməz. Çünki insanın daxilində həmişə doğru ilə yanlışın mübarizə apardığı bir tərəf var. Problem isə ondadır ki, müasir insan zamanla yanlışla yaşamağa alışır. Bir müddət sonra artıq qaranlıq ona qaranlıq kimi görünmür. Sükut normal, laqeydlik adi, mərhəmətsizlik isə həyatın bir hissəsi kimi qəbul edilir.

Halbuki insanın ən böyük xüsusiyyəti hiss edə bilməsidir. Başqasının ağrısını anlayan, haqsızlıq qarşısında daxilən narahat olan, vicdanı ilə mübarizə aparan insan hələ tam kor olmayıb. Ən qorxulusu isə odur ki, insan bir gün yanlışları görüb artıq heç nə hiss etməməyə başlayır. Bax, həqiqi korluq budur.

Bu gün insanlar bəzən həqiqəti eşitməkdən qaçırlar. Çünki həqiqət insanı dəyişməyə məcbur edir. Dəyişmək isə çətindir. İnsan çox vaxt rahatlığını vicdanından üstün tutur. Halbuki insanı ucaldan onun rahat yaşaması deyil, doğru yaşamasıdır.

Cəmiyyət də ailədən başlayır. Əgər ailədə insanlar bir-birinə qarşı korlaşırsa, uşaqlar mərhəməti deyil, laqeydliyi görərək böyüyürlərsə, sabah həmin cəmiyyətin daha ağır xəstəliklərlə üzləşməsi qaçılmaz olur. Çünki vicdanını itirən insan əvvəlcə bir insanı qırır, sonra bir ailəni, daha sonra isə bütöv bir cəmiyyəti dağıdır.

Bəzən bir insanın susduğu həqiqət illər sonra böyük bir faciəyə çevrilir. Bir zamanlar kiçik görünən yanlışlar sonradan qarşısı alınmaz uçurumlara çevrilir. İnsan bunu görə-görə susanda isə artıq sadəcə şahid olmur, bir növ həmin yanlışın səssiz ortağına çevrilir.

Əgər insan yenidən düşünməyi, hiss etməyi, vicdanının səsini eşitməyi bacarsa, XXI əsrin bu vəbasına qarşı ən böyük mübarizə də başlamış olar. Çünki dünyanı dəyişən insanlar əvvəlcə öz daxilindəki korluğu məğlub edən insanlardır. İnsanlığın nicatı gözləri açmaqda deyil, baxdığı həqiqəti görə bilməkdədir. Və bəlkə də insanın ən böyük xilası budur: Bir gün güzgünün qarşısında dayanıb özündən qaçmadan, öz vicdanının gözlərinə baxa bilmək.

**Lamiyə Hacıyeva (Eminova)**
*Bütün Gürcüstan Müsəlmanları İdarəsi Qadınları Şurasın sədri*

# RƏQƏMSAL DÖVRDƏ GƏNCLİK VƏ DƏYƏRLƏR



Bu günün gənci dünənin gəncindən fərqlidir. O, daha çox informasiya içində böyüyür, daha çox seçim qarşısında qalır və bəzən də bu seçimlərin arasında özünü itirmək riski ilə üz-üzə qalır. Müasir dövrdə gənclərin mənəvi dünyası əvvəlki nəsillərlə müqayisədə daha mürəkkəb təsirlər altında formalaşır. Qloballaşma, informasiya texnologiyalarının sürətli inkişafı və sosial medianın geniş yayılması gənclərin düşüncə tərzinə və dəyərlərinə birbaşa təsir edir.

Xüsusilə internet və sosial şəbəkələr gənclərin həyatında mühüm yer tutur. Bu platformalar vasitəsilə onlar yeni biliklər əldə edir, fərqli dünyagörüşləri ilə tanış olur və özlərini ifadə etmək imkanı qazanırlar. Maarifləndirici və motivasiyaedici məzmunlar bir çox gənc üçün ilham mənbəyinə çevrilir.

Lakin sosial medianın mənfi tərəfləri də az deyil. Tez-tez təqdim olunan "ideal həyat" görüntüləri ilə yanaşı, ideal bədən quruluşu, mükəmməl görünüş və süni həyat standartları gənclərə nümunə kimi aşılanır. Bu cür görüntülərə baxan bir çox gənc özünü həmin "standartlarla" müqayisə edir, öz görünüşünü və həyatını bəyənməməyə başlayır, hətta həmin görüntülərə bənzəmək üçün qeyri-real hədəflər qoyur. Bu isə onların həm psixoloji vəziyyətinə, həm də sağlam özünü dərk etməsinə mənfi təsir göstərir.

Eyni zamanda, ekran qarşısında uzun müddət vaxt keçirmək canlı ünsiyyət bacarıqlarının zəifləməsinə və diqqət dağınıqlığına gətirib çıxarır. Bəzi televiziya və onlayn məzmunlar isə aqressiyanı və səthi dəyərləri normallaşdıra bilir.

Bu səbəbdən gənclərə yalnız texnologiyadan istifadə etməyi deyil, onu düzgün və şüurlu şəkildə istifadə etməyi öyrətmək vacibdir. Onlara gördüklərini təhlil etməyi və hər informasiyanı olduğu kimi qəbul etməməyin önəmini anlatmaq müasir tərbiyənin əsas istiqamətlərindəndir.

Gənclərin mənəvi tərbiyəsində ailənin rolu isə dəyişməz olaraq qalır. Ailədə formalaşan hörmət, məsuliyyət və empatiya kimi dəyərlər gəncin həyat yolunu müəyyənləşdirir. Bununla yanaşı, məktəb və sosial mühit də bu prosesin ayrılmaz hissəsidir.

Gənclərlə işləyərkən onları dinləmək xüsusi əhəmiyyət daşıyır. Gənc öz fikrinin dəyərli olduğunu hiss etdikdə daha sağlam qərarlar verməyə meyilli olur və özünə inamı artır.

Eyni zamanda real həyat bacarıqlarının öyrədilməsi də vacibdir. Stresslə mübarizə, düzgün seçim etmə və sağlam münasibətlər qurma bacarıqları gənclərin mənəvi sabitliyini gücləndirir.

Nəticə olaraq qeyd etmək olar ki, gənclərin mənəvi dünyası müxtəlif amillərin təsiri ilə formalaşır. Ailə, məktəb və cəmiyyətin birgə dəstəyi isə sağlam və dəyərlərinə sahib çıxan gənclərin yetişməsində əsas rol oynayır.

**Vüsalə Məmmədova**

# BELƏ-BELƏ İŞLƏR: QALAKTİON TABİDZE



*(əvvəli ötən sayda)*

Dünyəvi Qalaktion çarəsiz bir insan idi. O, "Mtatsminda gecəsi"ni yaza bilərdi, amma adi bir lampanı dəyişə bilmirdi. Bir dəfə mənzildə işıq söndü. Qalaktion lampanı dəyişdirmək əvəzinə, bu mövzuya səkkiz səhifəlik bir traktat həsr etdi. Hətta pərdələri asmaq üçün də əvvəlcədən hazırlaşırdı və bir plan da qururdu. Onun gündəliyində pərdələrlə bağlı bir qeyd də var: "Pərdələri asmaq üçün addım atılıb". Məişət məsələlərini həll etməkdə tamamilə aciz olan şair tez-tez kömək üçün hökumətə müraciət edirdi. Qalaktion Tabidze də oxşar bir müraciəti Gürcüstan Mərkəzi Komitəsinin sədri Filippe Maxaradzeyə yazdı. O vaxtlar Krılov küçəsinin 10 nömrəli evində yaşayan Qalaktion qonşusu Şoniya adlı bir şəxsdən ortaq tualet barədə şikayət edirdi. Görünür, qonşuluq mübahisəsini müstəqil şəkildə həll etmək onun imkanlarından kənar idi.

Qalaktionun məktubundan:

"Yatdığım və işlədiyim yalnız bir otağım var. Başqa əlavə yer tapa bilmirəm. Tualet otağın təbii bir uzantısıdır və memarlıq baxımından onun hüdudlarına daxildir. Bu hal mənə tualet üzərində daha çox hüquq verir. Şoniya bunu bilir, amma hücum taktikasına əl ataraq "Səni qorxudub tualetdən tamamilə ayağını kəsəcəyəm..." deyib".

Qalaktionun vəziyyəti 1920-ci illərin sonlarında daha da pisləşdi. Sovet İttifaqında köhnə bolşevik kadrlarının təqibi başladı. Olqa Okucavanın qardaşı Mixail Okucava həbs edildi. Onunla birlikdə Qalaktionun həyat yoldaşı da NKVD (Daxili İşlər Xalq Komissarlığı) tərəfindən həbs edildi. Olqa Okucava 1929-cu ildə Orta Asiyaya sürgün edildi. Şair Olqanı bir şeirlə yola saldı:

*Həyatın faytonu çəkiləsi dərddir*
*Qatar harasa gedəcək,*
*Mənim ümidim yola düşür,*
*Tale ulduzunun çəkiləsi dərdi.*

Qalaktion Tbilisidə tək qaldı. O, yenidən spirtli içki ilə özünü xarici dünyadan uzaqlaşdırmağa çalışdı. Bir qayda olaraq, içki dövrü şairin həyatındakı çətin mərhələlərlə üst-üstə düşdü. Olqanın həbsi, qardaşının ölümü, ЧК (Fövqəladə Komissiya) tərəfindən dindirilmə, ədəbi dairələrdəki münaqişələr, çətin bir mühit, buna görə də Qalaktionun həssas psixikası daim təzyiq altında idi. Şair ildə bir neçə dəfə dalbadal çox içirdi. O, bunu xəstəlik adlandırırdı. Bu halda aptek isə yeməkxana idi. Pulu olmayanda Qalaktionun qiymətli əşyaları araq müqabilində bufetçiyə girov qoyulurdu. Sərxoş Qalaktion bəzən gecəni açıq səma altında da keçirirdi. Bir dəfə Veranın enişində tut ağacının altında yuxuya gedir və oyananda əynində nə kostyum, nə də ayaqqabı var idi. Şair oyaq ikən belə də qarət edildi. 1934-cü ilin qışında Qalaktion binanın girişində döyülmüş, paltosu və ayaqqabıları soyundurulmuş halda tapıldı. İsti paltarsız qalan şair iki ay evdə oturdu.

1933-cü il Qalaktioni üçün xoşbəxt bir il oldu. Repressiyaya məruz qalan qohumlarına və şübhəli şeirlərinə baxmayaraq, Sovet hakimiyyəti ona Xalq şairi adı verdi və fərdi təqaüd təyin etdi. Qalaktionun ədəbi fəaliyyətinin 25-ci ildönümü münasibətilə Opera Teatrında onun gecəsi keçirildi. Olqa həmin il sürgündən azad edildi. Cütlük yeni mənzillərini birlikdə qeyd etdilər. 1935-ci ildə Xalq şairi Marcanişvili küçəsinin 4 nömrəli binasının ikinci mərtəbəsində üç otaqlı mənzil aldı. 1936-cı ildə o, Lenin ordeni laureatı oldu. Kommunistlər Qalaktionu himayə etdilər. O, Gürcüstanda ürəyində qızıl "Leninin" parladığı yeganə şair idi. Xalq şairi adı Qalaktiona inanclarını güzəştə getmək bahasına başa gəldi. Simvolizm ittihamına cavab olaraq Qalaktion "Mavi atlar", "Mtatsminda Ayı" və digər şah əsərlərindən imtina edir. Şair bu şeirləri unudulmuş və rədd edilmiş adlandırır. Şairin əsl təbiəti daim gizlədilirdi. O, münaqişələrdən qaçırdı, hamı ilə razılaşırdı və mübahisələrdən uzaq dururdu.

Qalaktion Tədqiqat Mərkəzinin direktoru Temur Doiaşvili hesab edir ki, dövrün tələblərinə uyğun yazmaq şairin fiziki yaşaması üçün məcburi bir addım idi:

"Qalaktion istəsə də, istəməsə də, əsas prinsiplərindən imtina etməyə məcbur edildi. Yəni: Ali ideallar əvəzinə sosializm ideallarını təbliğ etməyə məcbur edildi. Azadlıq əvəzinə tiranı tərənnüm edən şeirlər yazdı, saf poeziyanın əsasları əvəzinə sosial realizmdən danışdı. Əlbəttə ki, bu, əsasən məcburi bir hərəkət idi, lakin Qalaktion kimi mənəvi düşüncəli bir insan üçün bu, böyük bir daxili böhran demək idi və bu böhran onun yenə də qeydlərində təsdiqlənir".

Zahiri rifah 1937-ci ildə sarsıldı. Hətta Tabidzenin ailəsi belə Sovet İttifaqında başlayan total repressiyalardan xilas ola bilmədi. 1937-ci ilin yanvarında Olqa Okucava həbs edildi. Həyat yoldaşının həbsindən sonra Qalaktion artıq öz mənzilində qala bilmirdi. Üç həftə ərzində o, ümumiyyətlə, evdə gecələmədi. Qalaktion uzun müddət həyat yoldaşının taleyi barədə heç nə bilmirdi. Şair son məktubunu ondan 30 avqust 1941-ci ildə aldı. Xalq şairinin həyat yoldaşı xalq düşməni elan edilmiş və Oryol həbsxanasında güllələnmişdi. Qalaktion 1937-ci il repressiyaları haqqında aşağıdakı şeiri yazdı:

*Heç kim səni sadəcə çarmıxa çəkməz –*
*Marksı tanımadığın, Kamonu tanımadığın üçün.*
*Dağ çayı və mavi səma gecəsini kim sevməz ki,*
*Yalnız axmaq bir şey ağzından qaçmasın.*

***

1943-cü ildə Qalaktion yenidən evləndi. Onun seçdiyi Nino Kvirikadze idi. Şair ikinci arvadı ilə ortaq bir taleyi bölüşürdü. 1937-ci ildə Qalaktion arvadını itirdi və Kvirikadzenin isə əri güllələndi. Qalaktion ömrünün son 17 ilini məhz elə Nino ilə keçirdi.

Qalaktion öz dahiliyini yaxşı bilirdi, amma yenə də hər gün digər şairlərdən üstün olduğunu hər halda sübut etməyə çalışırdı. Gürcüstanda ikinci şairin kim olduğu soruşulduqda, Qalaktion cavab verirdi: "Dördüncüdən başlasaq daha yaxşı olmazdımı?"

Şair şah əsərlərindən birini, Nikortsmindaya tərif himnini məbədi görmədən yazıb. 1947-ci ildə Şovidə olarkən kilsəni ətraflı təsvir edən Nikortsmindadan olan bir dülgərlə yaxın oldu. Qalaktionun dahiliyi nəql olunan hekayəni şeirə çevirdi.

*Burda ki, tağlardır, sütunlar səfi,*
*Elə tikilib ki, nağıl kimi düşünərsən,*
*Görəsən onu kim tikib, hansı istedad qurub,*
*Hansı lütf Nikortsminda sütununu tikib!*

O, populyarlığına uşaq kimi sevinir, eyni zamanda diqqət mərkəzində olanda çaşqınlıq içində olur, qızarır və həyəcandan saqqalını ovuşdururdu. Öz adını əbədiləşdirməyə elə sağlığındaca çalışırdı. 50 illik yubileyində Qalaktion hökumətə 7 maddəlik məktub göndərdi. Xalq şairi Samtredia şəhərinin Saqalaktioni adlandırılmasını, elə sağlığında ikən bir abidənin qoyulmasını və Tbilisinin görkəmli küçələrindən birinə və Kür çayının sol sahilinə Qalaktionun adının verilməsini xahiş edirdi.

*(davamı növbəti sayda)*

Topladı və gürcü dilindən tərcümə etdi:
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 MAY
2026-CI İL
№ 10 (250)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BİR ŞAGİRDİN TƏHSİLİNƏ ƏN ÇOX VƏSAİT XƏRCLƏYƏN 10 ÖLKƏ



İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ölkələrində bir şagirdə düşən orta xərc təxminən 15000 dollar olduğu halda, bir neçə ölkə bu göstəricini xeyli üstələyir. Onlar insan kapitalının inkişafına böyük resursların yatırılmasını uzunmüddətli iqtisadi prioritet hesab edirlər.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təhsil məlumat bazasının son göstəricilərinə əsasən, alıcılıq qabiliyyəti pariteti (PPP) nəzərə alınmaqla, 2026-cı ildə bir şagirdə ən çox vəsait xərcləyən 10 ölkəni təqdim edirik:

**1. Lüksemburq – 31439 dollar.**

Lüksemburq bu göstərici ilə liderdir və digər dövlətləri xeyli qabaqlayır. Kiçik əhali, güclü maliyyə bazası və keyfiyyətli, çoxdilli təhsilə yönəlmə – dünyada bir şagirdə düşən ən yüksək investisiyanı şərtləndirən məhz bu amillərdir. Bununla yanaşı, burada müəllimlərin əməkhaqqı da dünya miqyasında ən rəqabətədavamlılardan biridir.

**2. Norveç – 22558 dollar.**

Norveçin büdcəsi ölkənin ümumi rifah modelini əks etdirir, burada təhsil ictimai nemət sayılır. Sabit maliyyələşmə həm şəhərlərdə, həm də ucqar regionlarda azsaylı sinifləri, pedaqoqların yüksək əməkhaqqını və müasir infrastrukturu təmin edir.

**3. Avstriya – 20942 dollar.**

Avstriya güclü dövlət maliyyələşməsini yaxşı strukturlaşdırılmış akademik və peşə sistemi ilə uğurla birləşdirir. Bir şagird üçün nəzərdə tutulan yüksək büdcə ilə rəsmi təhsili və praktiki təcrübəni bir-biri ilə əlaqələndirən dual təhsil modeli maliyyələşdirilir.

**4. ABŞ – 20 387 dollar.**

Mərkəzsizləşdirilmiş strukturuna baxmayaraq, Amerika Birləşmiş Ştatları liderlər arasında qalmaqdadır. Doğrudur, maliyyələşmə ştatlar və dairələr üzrə əhəmiyyətli dərəcədə fərqlənir, lakin ümumi investisiyalar müasir laboratoriyalara, aparıcı tədqiqat institutlarına və dünyada qabaqcıl mövqeyini qoruyub saxlayan ali təhsil sektoruna yönəldilir.

**5. Cənubi Koreya – 19805 dollar.**

Cənubi Koreyanın təhsil sistemində güclü dövlət maliyyələşməsi və əhəmiyyətli özəl xərclər bir-biri ilə vəhdət təşkil edir. Büdcə maliyyələşməsinə müxtəlif məktəbdənkənar təhsil proqramları da əlavə olunur ki, bu da ölkədəki son dərəcə rəqabətli akademik mühiti daha da gücləndirir.

**6. Danimarka – 19229 dollar.**

Danimarka üçün prioritet bərabər əlçatanlıq və şagirdlərin rifahıdır. Ölkənin təhsil sistemi davamlı dövlət investisiyaları ilə dəstəklənərək əməkdaşlığı, kreativliyi və sosial yardımı təşviq edir.

**7. Niderland – 19186 dollar.**

Niderland sabit şəkildə yüksək xərcləri qoruyub saxlayır və eyni zamanda yüksək təlim nəticələri nümayiş etdirir. Ölkədə maliyyələşmə şagirdlərə erkən yaşlardan akademik və ya peşə istiqaməti üzrə ixtisaslaşma imkanı verən çevik sistemə sərf olunur.

**8. Böyük Britaniya – 19072 dollar.**

Böyük Britaniyada təhsil xərcləri, xüsusilə ali təhsil və tədqiqat istiqamətlərində yüksək səviyyədədir. Bununla belə, ölkədə dövlət məktəblərinin maliyyələşmə problemləri və regional qeyri-bərabərliklə bağlı narahatlıqlar hələ də aktual olaraq qalır.

**9. Belçika – 19024 dollar.**

Belçikanın dil icmalarına bölünmüş təhsil sistemi yenə də böyük həcmdə maliyyələşdirilir. Ayrılan investisiyalar güclü məktəbəqədər təhsilə və müxtəlifyönlü orta məktəblərə yönəldilir.

**10. Kanada – 18733 dollar.**

Onluğu hər bir şagirdə sabit şəkildə yüksək investisiya qoyan Kanada tamamlayır. Kanadanın mərkəzsizləşdirilmiş təhsil modeli, xüsusilə savadlılıq və bərabərlik baxımından mükəmməl nəticələr göstərir və bununla da o, dünya liderlərinin yanında qərarlaşır.

*Mənbə: bm.ge*

## GÜRCÜSTANDAN RUSİYAYA İXRAC ARTIB



Gürcüstandan Rusiyaya ixrac artıb. Cari ilin ilk dörd ayının məlumatlarına görə, qonşu ölkəyə Gürcüstandan yerli ixrac 182,6 milyon ABŞ dolları təşkil edib. Ötən ilin eyni dövründə yerli ixrac isə 173,4 milyon ABŞ dolları təşkil edib. Dörd ay ərzində ümumi ixrac göstəriciləri də 199,3 milyon ABŞ dollarına qədər artıb. 2025-ci ilin yanvar-aprel aylarında isə bu rəqəm 189,5 milyon ABŞ dolları idi.

İxracda birinci yeri təbii üzüm şərabları tutur. İlk üçlükdə spirtli içkilər, həmçinin mineral və şirin sular yer alır.

Gürcüstan Milli Statistika İdarəsinin məlumatlarına əsasən, son beş ildir Rusiyaya ixrac və yerli ixrac da artmaqdadır. Əgər 2020-ci ilin məlumatlarını 2025-ci ilin ümumi statistikası ilə müqayisə etsək, Gürcüstandan Rusiyaya ixracın demək olar ki, iki dəfə artdığını görərik:

- 2020-ci il – 440,6 milyon ABŞ dolları;
- 2021-ci il – 610 milyon ABŞ dolları;
- 2022-ci il – 642,4 milyon ABŞ dolları;
- 2023-cü il – 657 milyon ABŞ dolları;
- 2024-cü il – 679,6 milyon ABŞ dolları;
- 2025-ci il – 749,2 milyon ABŞ dolları.

***İxrac mallarına gəldikdə isə, 2025-ci ilin ümumi məlumatlarına görə, TOP-10-luq bu cürdür:***

1. Təbii üzüm şərabları – 179,6 milyon ABŞ dolları;
2. Spirtli içkilər – 157,9 milyon ABŞ dolları;
3. Mineral və şirin sular – 71 milyon ABŞ dolları;
4. Qazlı, şəkərli içkilər – 50,7 milyon ABŞ dolları.
5. Digər üsulla hazırlanmış və ya konservləşdirilmiş meyvə, bitkinin digər hissələri – 50,3 milyon ABŞ dolları;
6. Digər təzə meyvələr – 48,5 milyon ABŞ dolları;
7. Ərik, gilas və albalı, şaftalı, qarağat, gavalı – 34,8 milyon ABŞ dolları;
8. İçki istehsalında istifadə olunan qarışımlar – 21,2 milyon ABŞ dolları;
9. Təzə və ya dondurulmuş kartof – 20,5 milyon ABŞ dolları;
10. Sitrus meyvələri – 16 milyon ABŞ dolları.

Son illərdə Rusiyaya ixracın əhəmiyyətli dərəcədə artmasına əsasən şərab, spirtli içkilər və mineral suların ixracının böyük ölçüdə çoxalması səbəb olub. Lakin digər tərəfdən qeyd edilməlidir ki, Rusiyaya ferroərintilərin ixracı demək olar ki, 100 % azalıb.

İdxala gəlincə, artıq üçüncü ildir ki, idxal da artmaqdadır. Ötən il Rusiyadan edilən ümumi idxal 1,9 milyard ABŞ dolları təşkil edib və bu göstərici də son beş ildə iki dəfə artıb. 2020-ci ildə Rusiyadan idxal 888,4 milyon ABŞ dolları idi.

İdxalda ilk üçlükdə neft və neft məhsulları, həmçinin neft qazları və buğda yer alır. Buradakı artım əsasən neft məhsulları və neft qazlarının idxalının demək olar ki, iki dəfə artması ilə bağlıdır.

*Mənbə: bm.ge*

**Təsisçi:**
**“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”**

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.